*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 57-61* *ISSN: 2663-4406*

**UOT:** 821.512.162(091)

Bəhram Quluzadə*, Firudin Qurbanov *

# ULDUZLAR ALƏMİ İMADƏDDİN NƏSİMİNİN ŞEİRİNDƏ

***Xülasə***

Dünya ədəbiyyatının korifeyi Seyid Əli Seyid Məhəmməd oğlu İmadəddin Nəsimi (1369-1417) türk poeziyasının dahi şairlərindən biri hesab olunur. O, ilk dəfə olaraq hürufizmin humanist ideyalarını tərənnüm etmişdir. Onun əsərləri çoxşaxəli, lakonik və mükəmməl formada dərin fəlsəfi fikirlər ifadə edir və mürəkkəb insani hissləri əks etdirir.

O öz dövrünün bütün elmlərini yüksək dərəcədə kamil öyrənmişdi. O cümlədən, o, ulduz elmlərini də əla bilirdi.

Mikro və makrokosmosun, insan və kainatın harmoniyası şairin əsas mövzularından biridir. Bu səbəbdən o, İslam poeziyasının məxsusi janrı olan urcuzalardan – elmi mövzuda şeirlərdən istifadə edirdi. Nəsimi insanı tərənnüm edərək onu bütün səma cisimlərindən ucada tuturdu.

**Açar sözlər:** Nəsimi, hürufilik, qəzəl, ulduzlar, səyyarələr, urcuza.

## STARS WORLD IN POEMS BY IMADADDIN NASIMI

***Summary***

Leading figure of world literature Seyid Ali Seyid Muhammad oglu Imamaddin Nasimi (1369-1417) is one of the genius poets of the Universal Turkish poetry. For the first time he glorified the human ideas of Hurufism. His works in a multifaceted, laconic and perfect form express deep philosophical thoughts and reflect complex human feelings.

He studied all the sciences of his time perfectly. In particular, he knew astronomy very well.

The harmony of micro and macrocosm, a human with the universe are the main themes of the poet. For this reason, he used a special genre of Islamic poetry, the urjuza – science in verse. Nasimi glorified human more superior than the heavenly stars.

**Key words:** Nasimi, hurufism, gazhal, stars, planets, urjuza.

## ЗВЕЗДНЫЙ МИР В СТИХАХ ИМАД АД-ДИНА НАСИМИ

***Резюме***

Корифей мировой литературы Сеид Али Сеид Мухаммад оглы Имад ад-Дин Насими (1369-1417) является одним из гениальных поэтов тюркской поэзии. Он впервые воспел гуманные идеи хуруфизма. Его произведения в многогранной, лаконичной и совершенной форме выражают глубокие философские мысли и отражают сложные человеческие чувства.

Он в высшей степени хорошо изучил все науки своего времени. В том числе, он отлично знал звездные науки.

Гармония микро- и макрокосма, человека с вселенной одна из главных тем поэта. Он по этой причине использовал особый жанр исламской поэзии урджузы – наука в стихах. Насими, воспевая человека, ставил его выше небесных светил.

**Ключевые слова:** Насими, хуруфизм, газель, звезды, планеты, урджуза

* Şamaxı Astrofizika Rəsədxanası. Fizika-riyaziyyat üzrə fəlsəfə doktoru.
* Azərbaycan Milli Konservatoriyası. Filologiya üzrə fəlsəfə doktoru.

**Giriş.** Dünya ədəbiyyatının korifeyi *Seyid Əli Seyid Muhəmməd oğlu İmadəddin Nəsimi (1369-1417)* öz dövründə mövcud olan bütün elmləri, o cümlədən nücum elmini mükəmməl bilir və buna böyük əhəmiyyət verirdi.

Məqalədə Nəsimi yaradıcılığında astronomik motivlər araşdırılıb.

***1. Nəsimi və ulduz elmi***

İmadəddin Nəsimi yazırdı:

*Məğribü məşriqdən oldu yəslimiz,*
*Yeddi ulduz, on iki bürc əslimiz,*
*Bistü həştü sivü düdür nəslimiz,*
*Fəzli-həqdən oldu babü fəslimiz [1, s.276].*

Yeddi ulduz (Günəş, Ay, Mars, Merkuri, Yupiter, Venera və Saturn), on iki bürc (Qoç, Buğa, Əkizlər, Xərçəng, Şir, Qız, Tərəzi, Əqrəb, Oxatan, Oğlaq, Dolça, Balıqlar), iyirmi səkkiz (bistü həşt) ərəb əlifbasındakı, otuz iki (sivü dü) fars və türk əlifbalarındakı hərflərin sayıdır. Fəzlullah Nəiminin açdığı təriqət qapısından hürufilərin fəsli, zamanı başlayır. Şair şeirlərində ulduz elmi terminologiyasından geniş istifadə edib:

*Həm mərkəz ilə kövkəbü bürc ilə mədarım,*
*Səyyarəmü çərxim, fələkim, seyri-səbatım [1, s.91], –*

beytdə adı keçən "mərkəz", "kövkəb"(ulduz), "bürc", "səyyarə", "çərx" –"fələk" (göyün sferaları), "seyr" (səyyarələrin trayektoriyası) və "səbat" (bürcdəki ulduzların yeri) kimi astronomik terminlər bu elmin əsasını təşkil edir.

Avropa münəccimlərinin bilmədiyi bir həqiqəti, Ayın Günəşdən nur aldığını Nəsimi Şirvani şeirində bədii şəkildə ifadə edirdi:

*Ayın hilali əgərçi Günəşdən alır nur,*
*Bu Ayı gör ki, Günəş nur alır hilalindən [2, s.152].*

*Gərçi, Günəşdəndürür tabəndə mahın təl'əti,*
*Ey Qəmər, Xurşidü Mahı təl'ətin taban edər [2, s.285].*

Yerin peyki olan Ayın bir sıra münəccimlər tərəfindən müstəqil səyyarə kimi qəbul edilməsinə şair poetik deyim məqamında etirazını bildirirdi:

*Günəş bənzər dedim, şol Aya, heyhat,*
*Qaçan şol maha hər səyyarə bənzər? [2.s.252]*

Orta yüzilliklərdə rəsədxana və rəsəd quyuları gecə-gündüz ulduzlar aləmini öyrənmək üçün fürsət verirdi.

*Səyyarə kimi seyr edərəm daim anınla,*
*Şol seyr edici kövkəbi-səyyar ələ girməz [2.s.76], –*

beytdən aydın olur ki, Nəsimi ulduzlar aləmini bir seyrçi kimi də müşahidə edib. Şair göy sferasının adi seyrçisi kimi qalmayıb, səma cisimlərinin hərəkət məntiqini və fəlsəfəsini anlamağa və anlatmağa çalışırdı:

*Dünü gün müntəzirəm mən ki, bu pərgar nədir?*
*Günbədi-çərxi-fələk, gərdişi-dəvvar nədir?*
*Bu doquz çərxi-müəlləq nədən oldu tərtib,*
*Fələk altında dönən kövkəbi-səyyar nədir?..*
*Günəşin qürsü nədən yer üzünə şö'lə verir,*
*Ya bu bir məş'ələdə nur nədir, nar nədir? [1, s.15]*

Ayın Yer ətrafında dövr etməsinə görə tərtib edilən təqvimlər Qəməri adlanır. Məhərrəm ayı ilə başlayıb Zilhiccə ayı ilə bitən Qəməri təqvim ili 355 gündür və Günəşlə ölçülən təqvim ilindən 10 gün qısadır. Belə ki, Qəməri tarixlə 89 il yaşayanın yaşı Şəmsi (Günəş) təqvimiylə 86 il hesablanır. Nəsimi qəzəllərində münəccimlərin illik təqvim hazırlamasına da işarə edib. Yeni zamanda köhnə təqvim etibardan düşür:

*Saqiya, camı gətir kim, mən uşatdım tövbəmi,*
*Köhnə təqvimim mənim bie'tibar oldu yenə [2, s.54].*

*Münəccim, zahid inanmaz ki, sənsən əhsəni-təqvim,*
*Əzəldən ta əbəd oldu əyan hüsnün kitabından [2, s.183], –*

beytdəki "əhsəni-təqvim" söz birləşməsi həm gözəl tərtib olunmuş təqvim, həm də Qurani-Kərim ifadəsi olub, 95 ƏT-TİN surəsi 4-cü ayədə keçir, insana aid edilən "gözəl biçimdə" (yaratdıq) mənasına gəlir.

İmadəddin Nəsimi Ulduz elmini yaxşı bildiyindəndir ki, poetik obrazları səyyarə və bürclərə müvafiq qruplaşdırıb bədii fikrini daha qabarıq çatdırmağa müvəffəq olub.

**2. *Ürfan poeziyasında astronomik motivlər***

Şairin aşağıdakı beytlərinə diqqət yetirək:

*Şəbi-yeldadurur saçın gecəsi,*
*Surətin bədrinə Qəmər dedilər [2, s.265].*

*Rüxün şəmi şüasından münəvvər,*
*Fələkdə Mahü Mehrü Müştəridir [2, s.82].*

Sənin üzünün şamının şüasından fələkdə (göy sferasında) Ay, Günəş, Yupiter öz işığını alır-deməklə, şair öydüyü şəxsin iman işığı ilə nurlandığını önə çəkmiş olur.

*Səadət bürcünün dirxahi oldur,*
*Yer ilə Gögü həm Keyvan anındır [2,s.82].*

*Laməkan Xurşidiyəm, həm Sə'di-Əkbərdir adım,*
*Nəhsü kənzü təl'əti-bədri-şəbi-deycuruyam [1, s.112].*

Səadət bürcü deyəndə Nəsimi Yupiteri nəzərdə tutur. Şair bu beytdə təzad bədii fiqurundan bəhrələnib. Yupiter əgər xoşbəxtliyə işarədirsə, Keyvan – Saturn talesizlikdən xəbər verir. Yer və Göy də təzaddır, biri ucalığı, digəri alçaqlığı rəmzləşdirir.

*Üzünə, qaşına anın özümü bənzədəm deyib,*
*Gah dönər ay bədr olur, gah özünü hilal edər [2, s.287].*

Bənzətmədə, qiyas bədii fiqurundan istifadə etməklə, şair Ayın bir ay ərzində 28 şəklə düşdüyü, onun gah hilal, gah bədr halında olduğu üçün, hilalı qaşa, bədri girdə üzə oxşadır.

*Ayü günü nə vəch ilə üzünə nisbət eyləyim,*
*Hüsni-rüxün qatında çün Ay ilə Gün Sitarədir [2, s.213].*

*Sana Günəş kimi, ey fitnə, sücud eyləyənin,*
*Əxtərü taleyi məs'udü müzəffər dedilər [2, s.264].*

Günəş Şərqdən çıxıb Qərbdə batır. Əslində Günəş çıxıb-batmır, bu, Yerdən elə görünür. Şərqdən-Qərbədək hər günkü eyni dönümü təkrarlamaqla, sanki Günəş Yerə səcdə edir, Günəşin xoş taleyi himayə etməsi də nücum elmindən bəllidir.

*Qaçan ki, Sünbüli-zülfün niqabı Aya düşər,*
*Qəmər səhaba girər, Afitaba sayə düşər.*
*Düşürmüş Aya saçın zillinivü kölgəsinə,*
*Düşürmək ancılayın sayə şol hümaya düşər [2, s.289].*

*Günəş dutuldu dedilər nəzər qıldım camalına,*
*Üzünə zülfüdür düşmüş, bu el yanlış xəyal eylər [2, s.216], –*

beytlərində Günəşin tutulması poetik dillə təsvir olunmuşdur. Burada konkret olaraq Ayın Qız (Sünbülə) bürcündə olarkən Günəşin tutulması tarixçəsi verilib. Ayın kölgəsinin Günəşə düşməsindən Gün işığı yerə çatmır, qara görünür. Üzdə olan məna isə budur ki, sünbül kimi hörülmüş saçların Ay kimi üzünə düşəndə, göydəki Ay utandığından bulud arxasında gizlənər, günəşə isə kölgə düşər.

*Məhi-tabana, ya Mehrə səni bənzətməsəm, neyçün*
*Ki, hüsnün xirmənində gün Məh ilə Sünbüləçindir [2, s.256].*

Şair tərifədiyi şəxsi bədrlənmiş Aya, Günəşə ancaq ona görə bənzətmir ki, şeiri yazan vaxt Ay ilə Günəşin hər ikisi Qız (Sünbülə) bürcündə idi. Sanki Ay da, Günəş də, onun "tarlasının sünbülbiçən rəncbəri"dirlər.

*Şəşəsindən məhv olur Ay ilə Gün bu Zöhrənin,*
*Gör ki, nə Afitab imiş ol Fələkin Sitarəsi [2, s.243].*

Dəbdəbəli parıltısı ilə Ayı, Günəşi, sübh çağı görünən Zöhrənin işığını azaldıb məhv edən bu gözəlin ulduzu gör necə bir Günəş imiş?

*Zülfün qəmərin dövrünə yüz fitnə buraxdı,*
*Ey dövri-qəmər fitnəsi, fəttani-zamansan [1, s.80].*

*Dövri-qəmərdə gözlərin bir gəz qıya baxdı mana,*
*Zülmündən ol xunxarənin qan ilə qəltan olmuşam [1, s.117].*

*Dövri-qəmərdə mərkəzi aşubü fitnənin,*
*Mişkin saçınla xali-müdəvvər degilmidir? [2, s.277]*

Ay Qız (Sünbülə) bürcündə olanda fitnələr daha da çox olur. Şair bu astroloji məlumatdan gen-bol bəhrələnib.

İslam sferalı nücum elmində "abaum" və "ummuhatun" – "atalar", "analar" bir termin kimi ədəbi və fəlsəfi əsərlərdə istifadə olunur. "Atalar" dedikdə yeddi səyyarə: Günəş, Ay, Merkuri, Mars, Venera, Saturn və Yupiter nəzərdə tutulur. Bu səyyarələrə ərəbcə gah "aba səb'ə" (yeddi ata), gah da "aba'i-ulvi" (yüksəkdə, göylərdə olan atalar) dedikləri kimi, "ummuhat" – (analar) ifadəsi ilə də dörd ünsürü – od, su, hava, torpağı nəzərdə tuturdular. Bunlara "ummuhatu-ərbəə" – (dörd ana), bəzən də "ummuhati-sufli" (alçaqda, Yer kürəsində olan analar) adı vermişlər. Xatırladaq ki, "dünya" sözü ərəbcə aşağı, alçaq deməkdir. Ona görə də Quran göydən endirildi ifadəsi işlənir. Yüksəkdə yerləşmələrinə rəğmən, şair insanı bütün səma cisimlərindən də ucada görür:

*Səcdə edər Şəmsü Qəmər, Zöhrəvü Mahü Müştəri,*
*Hüsni-camalın görməgə, hurü mələk, insan budur [2, s.229].*

*Müştəri, Bəhramü Keyvan, Tirü Zöhrə, Mehrü Mah*
*Hüsnünə təhsin oxurlar rüb'i-məskun, şeş cəhat [2, s.293].*

*Mehr ilə Mahü Müştəri hüsnünə bəndədir, vəli*
*Sərv ilə sidrə özünü qamətinə qulam edər [2, s.284].*

**Nəticə.** Nəsimi öz dövrünün bütün elmlərini, o cümlədən astronomiyanı dərindən bilirdi. Dahi şair insanı, onun fikir və hisslərini vəsf edir insanı bütün Kainat cisimlərindən yüksəkdə hesab edirdi.

**ƏDƏBİYYAT**


1. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə, I cild. Bakı, "Lider nəşriyyat", 2004.
2. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə, II cild. Bakı, "Lider nəşriyyat", 2004.